OFTALMOLOGİYA
ELMİ-PRAKTİK JURNAL

# AKADEMİK ZƏRİFƏ ƏLİYEVA ADINA MİLLİ OFTALMOLOGİYA MƏRKƏZİNİN GÖZÜN İNFEKSİYA XƏSTƏLİKLƏRİ VƏ BUYNUZ QİŞANIN CƏRRAHİYYƏSİ ŞÖBƏSİ

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ

AKADEMİK ZƏRİFƏ ƏLİYEVA ADINA MİLLİ OFTALMOLOGİYA MƏRKƏZİ

Gözün infeksiya xəstəlikləri və buynuz qişanın cərrahiyyəsi şöbəsi akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin sələfi olan Azərbaycan Elmi-Tədqiqat göz xəstəlikləri institutunun ilk günlərindən fəaliyyət göstərmişdir və o dövrdə Respublikada aparılan traxoma ilə mübarizədə böyük rol oynamışdır.



Bizim günlərdə şöbənin fəaliyyəti müqayisə edilməz dərəcədə genişlənib, aşağıdakı istiqamətlərdən ibarətdir:

- göz almasının ön şöbəsinin virus mənşəli xəstəlikləri cəhətlərinin öyrənilməsi və müalicəsi, yeni müalicə metodlarının işlənilməsi və tətbiqi
- göz almasının ön şöbəsinin digər mənşəli infeksion (bakterial, göbələk, parazitar) və allergik xəstəlikləri cəhətlərinin öyrənilməsi və müalicəsi, yeni müalicə metodlarının işlənilməsi və tətbiqi
- gözün damarlı qişasının iltihabi xəstəlikləri, sistem və sindrom xəstəlikləri cəhətlərinin öyrənilməsi və müalicəsi, yeni müalicə metodlarının işlənməsi və tətbiqi



- buynuz qişanın ağır patologiyası zamanı dəlib keçən və tektonik keratoplastika cərrahi əməliyyatının aparılması, müxtəlif materiallardan istifadə edərək, müalicəvi laylı keratoplastikanın aparılması
- gözün qoruyucu və göz yaşı aparatının iltihabi xəstəlikləri və qüsurları zamanı cərrahi və konservativ müalicənin aparılması, bu sahədə olan yeni müalicə üsullarının tətbiqi.



Şöbənin əməkdaşları beynəlxalq elmi oftalmoloji konfranslarda müntəzəm şəkildə iştirak edərək, həmən sahələrdə olan bütün yenilikləri də öz işində tətbiq edib, yüksək funksional nəticələrə nail olurlar.

Şöbədə böyük və çoxtərəfli müalicə işi aparırlır: süni büllurun implantasiyası ilə kataraktanın ekstraksiyası, dəlib keçən və tektonik keratoplastika, gözün yaş yollarının keçiricilik qabiliyyətinin bərpası, göz qapaqlarında və konyunktivada plastik cərrahi əməliyyatlar, enukleasiya və evisserasiyadan sonra görmə orqanının hərəki-dayaq güdülünün formalaşmasının müxtəlif modifikasiyaları, gözün ön şöbəsində əmələ gələn xoş xassəli yenitörəmələrinin götürülməsi cərrahi əməliyyatları, buynuz qişanın iltihabi, distrofik, neyroparalitik patologiyasının, damarlı qişanın iltihabi patologiyasının konservativ müalicəsi aparılır.

Son zamanlar gözün iltihabi xəstəlikləri müalicəsində ümumi ozonoterapiya üsulu geniş və müvəffəqiyyətlə istifadə edilərək, əhəmiyyətli funksional nəticələri əldə etməyə imkan verir.